**19.12.2023: xəbər**

## Strengthening Ties Between "Economist" Club and Business in Finance and Accounting

On December 13, 2023, a scientific-practical seminar titled "Financier and Accountant Profession: Latest Trends in Business and University Education" was conducted by the "Economist" student development club under the Department of Economics and Management at Khazar University. Samir Agayev, an experienced expert in finance, tax accounting, and BERC Group, delivered a presentation during the seminar, attended by approximately 60 students. Samir Agayev shared insights into the knowledge and skills essential for shaping students into industry-ready professionals, detailing methods and forms of acquisition, the current landscape of the job market for finance-focused roles, and existing opportunities, threats, and prospects.

The seminar fostered interactive discussions on nuances of finance and accounting professions, job responsibilities, key requirements in the job market, financial accounting legislation, software, international and local certifications, soft and hard skills, opportunities for financial education and personal development, and a comparative analysis of university approaches to training financiers and accountants with the business world.

Following the session, students posed additional questions on the topic, receiving answers and recommendations for more comprehensive preparation in financial-oriented subjects taught at the university.

## “İqtisadçı” klubu maliyyə və mühasibatlıq ixtisası üzrə iş dünyası ilə əlaqələri genişləndirir

2023-cü il dekabrın 13-də Xəzər Universitetinin İqtisadiyyat və menecment departamentinin nəzdində fəaliyyət göstərən “İqtisadçı” tələbə inkişaf klubunda "Maliyyəçi və mühasib peşəsi: iş dünyası və universitet təhsilindəki son trendlər" mövzusunda elmi-praktik seminar təşkil olunmuşdur. Seminarda təcrübəli maliyyəçi, BERC Group təşkilatının maliyyə, vergi uçotu və mühasibatlıq üzrə mütəxəssisi Samir Ağayev mövzu üzrə geniş təqdimatla çıxış etmişdir. 60-a yaxın tələbənin iştirak etdiyi seminarda Samir Ağayev iş dünyası və universitet təhsilindəki uzunmüddətli təcrübəsi əsasında tələbələrin əmək bazarının

standartlarına uyğun mütəxəssis kimi formalaşması üçün zəruri olan bilik və bacarıqlar, onların əldə edilməsi üsul və formaları, maliyyəyönümlü ixtisaslar üzrə əmək bazarındakı son durum, mövcud imkanlar, təhdidlər və perspektivlər barədə məlumat vermişdir.

Seminarda maliyyə və mühasibatlıq peşələrinin xüsusiyyətləri, vəzifə öhdəlikləri, əmək bazarındakı əsas tələblər, maliyyə-mühasibat üzrə qanunvericilik bazası, proqram təminatları, beynəlxalq və yerli sertifikasiyalar, yumşaq və sərt bacarıqlar, fərdi inkişaf üçün maliyyə təhsili imkanları, həmçinin maliyyəçi və mühasib kadrların hazırlanmasına münasibətdə iş dünyası ilə universitetlərin yanaşmalarının müqayisəli təhlili və s. mövzular barədə interaktiv müzakirələr aparılmışdır.

Təlimdən sonra tələbələrin mövzu barədə əlavə sualları cavablandırılmış və onlara universitetdə tədris edilən maliyyəyönümlü fənlərə daha ciddi hazırlaşmaları üçün zəruri tövsiyələr verilmişdir.





MALİYYƏÇİ VƏ MÜHASİB PEŞƏSİ:
Samir Ağayev



